AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı |
| Qəbul edildiyi tarix | 01.12.2020 |
| Qeydiyyat nömrəsi | 52/1 |
| Adı | İcbari Sığorta Bürosuna ödənilməli olan iştirak haqqının və təminat depozitinin məbləğlərinin müəyyən edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 16.12.2020 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.050.030 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 23202012010521 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 15.12.2020 |

İcbari Sığorta Bürosuna ödənilməli olan iştirak haqqının və təminat depozitinin məbləğlərinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti ”İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununun 28.4-cü və 30.2-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən

**QƏRARA ALIR:**

1. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq üçün müraciət etmiş sığortaçının ödəməli olduğu iştirak haqqının məbləği 200.000 (iki yüz min) manat müəyyən edilsin.

2. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən sığortaçının Büroya birdəfəlik olaraq ödəməli olduğu təminat depozitinin məbləği müvafiq icbari sığorta növləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

2.1. Daşınmaz əmlakın icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

2.2. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

2.3. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;

2.4. Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə – 100.000 (yüz min) manat;

2.5. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə – 100.000 (yüz min) manat.

3. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən dövlət qeydiyyatının ərazi aidiyyəti Naxçıvan Muxtar Respublikasına aid olan, bu Qərarın 2-ci hissəsində nəzərdə tutulmuş icbari sığorta növləri üzrə sığorta müqavilələrini Naxçıvan Muxtar Respublikasında yerləşən daşınmaz əmlaklara və dövlət qeydiyyat nişanı Naxçıvan Muxtar Respublikasının rayonlarına aid olan nəqliyyat vasitələrinə münasibətdə, habelə həmin ərazidə icbari sığorta müqaviləsi bağlamaq vəzifəsi olan şəxslərlə (bundan sonra – sığorta predmeti və subyekti) bağlayan sığortaçının ödəməli olduğu iştirak haqqının və təminat depozitinin məbləğləri bu Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş məbləğlərin 50% miqdarında, Naxçıvan Muxtar Respublikasında olmayan, yerləşməyən və qeydiyyat nışanı həmin əraziyə aid olmayan sığorta predmetlərinə və subyektlərinə münasibətdə isə tam məbləğdə müəyyən edilsin.

4. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**